**DOI: doi.org/10.61226/12.2.2023/20252.8**
**Şahin MUSTAFAYEV**
**Azərbaycan Turizm və Menecment Universiteti,**
**baş müəllim**
**shahin.mustafayev74@gmail.com**
**https://orcid.org/0000-0002-1604-5858**

**Nərgiz HÜSEYNLİ**
**Azərbaycan Turizm və Menecment Universiteti,**
**magistrant**
**nargizhuseynli1104@gmail.com**
**https://orcid.org/0009-0005-2211-4951**

# KİÇİK BİZNESİN MALİYYƏLƏŞDİRİLMƏSİNDƏ KREDİTLƏŞMƏNİN TƏSİRİ: PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR

**Xülasə:** Kiçik və orta sahibkarlıq subyektləri müasir iqtisadiyyatların mühüm sütunlarından biri olmaqla, məşğulluğun artırılması, yeni texnologiyaların tətbiqi, innovativ yanaşmaların təşviqi və iqtisadi artımın davamlı təmin olunmasında əhəmiyyətli rol oynayır. Bu baxımdan kiçik biznesin inkişafı prioritet istiqamətlərdən biri kimi qiymətləndirilir. Lakin onun dayanıqlı inkişafı üçün maliyyə resurslarına çıxış, xüsusilə də kreditləşmə imkanları həlledici əhəmiyyət kəsb edir.Bu məqalədə Azərbaycanda kiçik biznesin maliyyələşməsi, xüsusilə bank kreditləri ilə təmin olunma vəziyyəti araşdırılır, kreditləşmənin inkişaf dinamikası statistik məlumatlarla təhlil olunur, qarşıda duran əsas problemlər və onların həlli yolları təklif edilir. Mərkəzi Bank və Dövlət Statistika Komitəsinin məlumatları əsasında aparılan təhlillər göstərir ki, kiçik sahibkarların kredit resurslarına çıxış imkanları məhduddur və bu, onların genişlənmə potensialına mənfi təsir göstərir. Məqalənin nəticəsində bu sahədə daha səmərəli kredit siyasətinin formalaşdırılması üçün konkret tövsiyələr verilmişdir.
**Açar sözlər:** Kiçik biznes, kreditləşmə, maliyyə resursları, bank sektoru, iqtisadi inkişaf

**Shahin MUSTAFAYEV, Nargiz HUSEYNLİ**

# THE IMPACT OF LENDING ON THE FINANCING OF SMALL BUSINESSES: CHALLENGES AND PROSPECTS

**Abstract:** Small and medium-sized enterprises (SMEs) play a vital role in modern economies by fostering employment, introducing innovative approaches, and contributing to sustainable economic growth. In this regard, the development of small businesses is considered one of the strategic priorities of state policy. However, access to financial resources, especially to credit, remains a critical factor for ensuring their stable growth. This article analyzes the current state of access to finance for small businesses in Azerbaijan, with a particular focus on bank lending. Based on the statistical data provided by the Central Bank and the State Statistical Committee of Azerbaijan, the study evaluates the dynamics of credit disbursement, highlights existing challenges, and proposes potential solutions. The analysis shows that small business entities still face significant limitations in accessing credit resources, which in turn affects their expansion capabilities. As a result, several practical recommendations are presented to improve lending mechanisms and support the development of the SME sector in the country.
**Keywords:** Small business, access to credit, financial resources, banking sector, economic development

**Шахин МУСТАФАЕВ, Наргиз ГУСЕЙНЛИ**

# ВЛИЯНИЕ КРЕДИТОВАНИЯ НА ФИНАНСИРОВАНИЕ МАЛОГО БИЗНЕСА: ПРОБЛЕМЫ И ПЕРСПЕКТИВЫ

**Абстракт:** Малые и средние предпринимательские субъекты являются одной из важнейших опор современной экономики, играя значительную роль в увеличении занятости, внедрении новых технологий, поощрении инновационных подходов и обеспечении устойчивого экономического роста. В этом контексте развитие малого бизнеса рассматривается как одно из приоритетных направлений. Однако для его устойчивого развития решающее значение имеет доступ к финансовым ресурсам, особенно к возможностям кредитования. В данной статье исследуется финансирование малого бизнеса в Азербайджане, в частности, состояние обеспечения банковскими кредитами, анализируется динамика развития кредитования на основе статистических данных, выявляются основные проблемы и предлагаются пути их решения. Анализ, проведённый на основе данных Центрального Банка и Государственного Комитета по Статистике, показывает, что доступ малых предпринимателей к кредитным ресурсам ограничен, что негативно влияет на их потенциал к расширению. По результатам статьи даны конкретные рекомендации по формированию более эффективной кредитной политики в данной сфере.

**Ключевые слова:** малый бизнес, кредитование, финансовые ресурсы, банковский сектор, экономическое развитие.

## Giriş

Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafına Dair Strateji Yol Xəritəsi" bu sahənin institusional dəstəklə gücləndirilməsi, əlverişli biznes mühitinin formalaşdırılması və sahibkarlıq fəaliyyətinin stimullaşdırılması üçün mühüm hüquqi bazadır.

Dövlət Statistika Komitəsinin 2023-cü il məlumatlarına əsasən, ölkədə fəaliyyət göstərən biznes subyektlərinin təqribən 95%-dən çoxunu kiçik və orta sahibkarlıq subyektləri təşkil edir. 2022-ci ilin yekunlarına görə isə KOB subyektlərinin ÜDM-də payı 24%, ümumi məşğulluqda payı isə təxminən 40% olmuşdur. Bu göstəricilər inkişaf üçün geniş potensial olduğunu göstərsə də, hələ də bu sahənin kreditləşmə imkanları məhduddur.Azərbaycan Respublikası Mərkəzi Bankı əsasən maliyyə bazarını tənzimləyir, nəzarət edir və koordinasiya edir. Kredit Bürosunun təcrübəsi Azərbaycanda yenidir. İlk kredit bürosu 2017-ci ilin dekabrında səkkiz bank tərəfindən birgə yaradılıb. Ümumilikdə, Azərbaycanda Kiçik və Orta Sahibkarlıq (KOS) maliyyələşdirilmə sahəsində Milli Sahibkarlığa Dəstək Fondunun vasitəsilə bəzi irəliləyişlər əldə edib. Lakin, banklar vasitəsilə maliyyələşdirmə hələ də əsas problem olaraq qalır, çünki sahibkarlar bankları yüksək faiz dərəcələri səbəbindən maliyyə əldə etmək üçün effektiv və əlçatan bir mexanizm kimi qəbul etmir. Bu səbəbdən, hökumət KOB-lara maliyyə dəstəyi verir, bunun üçün Milli Sahibkarlığa Dəstək Fondu, Dövlət İnformasiya Texnologiyaları İnkişafı Fondu, Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Olunması üzrə Dövlət Xidməti, Azərbaycan İnvestisiya Şirkəti və İpoteka Fondu kimi qurumlar vasitəsilə subsidiya maliyyələşdirməsi təklif olunur. KOB-ların maliyyələşdirilməsi və maliyyə inklüzivliyində iştirak edən maliyyə institutlarına tənzimləyici və nəzarət orqanları (Mərkəzi Bank), hökumət maliyyə dəstəyi göstərən dövlət fondları, eləcə də biznes subyektlərinə maliyyə dəstəyi verən kredit institutları və bürolar daxildir.

## Tədqiqat metodları


Kiçik və Orta Biznes (KOB-lar) ayrı-ayrı ölkələrin iqtisadiyyatının fundamental hissəsi kimi qəbul edilir və beləliklə, dünya iqtisadiyyatının dayaqlarını təşkil edir. Belə ki, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) məlumatına görə, KOB-lar müəssisələrin 95%-dən çoxunu təşkil edir və iş yerlərinin 60-70%-ni yaradır. Başqa bir aspektdən, Birləşmiş Millətlər Təşkilatının Sənaye İnkişafı Təşkilatının (UNIDO) hesablamalarına əsasən, KOB-lar özəl müəssisələrin 90%-ni təşkil edir və ümumi işçi qüvvəsinin 50-60%-ni məşğul edir [11]. Hətta

böhran dövrlərində və ya tənəzzül zamanlarında belə, KOB-lar məşğulluq, iqtisadi artım və məhsuldarlıqla əlaqələndirilmişdir. Asiya maliyyə böhranı zamanı kiçik və orta müəssisələr Tayvan üçün böhrana qarşı mübarizədə "qarışqa ordusu" kimi təsvir edilmişdir. KOB-lar ölkə iqtisadiyyatında əhəmiyyətli rol oynayır; onlar rəqabəti stimullaşdıraraq daha yüksək səmərəliliyə, qiymətlərin azalmasına və daha keyfiyyətli məhsullara gətirib çıxarır. Beləliklə qeyd edək ki, KOB-lar mövcud olmasaydı, iri müəssisələr bir sıra sahələrdə inhisarçılıq edərdi. İqtisadçı Zoltan J. Acs ABŞ və Avropadakı kiçik bizneslərı araşdıraraq, onların əhəmiyyətinin 1980-ci illərdən bəri artdığını müəyyən etmişdir. Məsələn, ABŞ-ın General Motors şirkəti subyığım və digər xidmətlər üçün təxminən 37,000 KOB ilə əməkdaşlıq edir. Bu praktika təkcə ABŞ-da deyil, Avropada da geniş yayılıb. Məsələn, İtaliyanın Benetton şirkəti istehsalının təxminən 95%-ni KOB-lara subpodrat əsasında həvalə edir. Yalnız başqa-başqa xarici Avropa ölkələri deyil, bütövlükdə Avropa İttifaqının iqtisadiyyatı da KOB-lar tərəfindən güclü şəkildə dəstəklənir. Ümumiyyətlə, KOB-lar hər zaman yeni iş yerləri yaratmasa da, insan kapitalının eroziyasını azaldır və nisbi bacarıqlara malik olan işsiz işçilər üçün yeni alternativ məşğulluq imkanları yaradır.

Azərbaycan Respublikasında kreditləşmə sistemi əsasən kommersiya bankları və bəzi qeyri-bank kredit təşkilatları (QBKT) vasitəsilə həyata keçirilir. Son illərdə ölkədə bank sektorunun restrukturizasiyası, valyuta sabitliyi və maliyyə intizamının gücləndirilməsi nəticəsində kredit portfeli artım meyli göstərməkdədir. Lakin bu artım daha çox iri sahibkarlıq subyektlərinə yönəlmişdir, kiçik və orta biznesin kreditləşməsində isə müəyyən çətinliklər qalmaqdadır. Kiçik biznes subyektlərinin kredit almaqda qarşılaşdıqları əsas çətinliklər aşağıdakılardır:

- Girov təminatının olmaması və ya yetərsizliyi
- Kredit tarixçəsinin zəif olması
- Bankların yüksək faiz siyasəti
- Kiçik sahibkarların maliyyə hesabatlılığının qeyri-kafi olması
- Kredit risklərinin yüksək qiymətləndirilməsi

Mərkəzi Bankın 2023-cü il illik hesabatına əsasən, ölkədə verilmiş ümumi kreditlərin 16.5%-i mikro, kiçik və orta biznes subyektlərinə aid olmuşdur. Bu faiz nisbətən aşağı səviyyədədir və inkişaf etməkdə olan digər ölkələrin göstəricilərindən geri qalır. Azərbaycan Respublikasında özəl sektorun inkişafı və maliyyələşdirilməsi dinamikası illərə görə müxtəlif cür reallaşdırılmışdır [3].




***Diaqram 1. Azərbaycanda Biznes Kreditlərinin İllər Üzrə Dinamikası (mln.manat) [12]***

Diaqramdan aydın olduğu kimi, Azərbaycanda biznes kreditləri üzrə aparılan illik müqayisəli təhlil göstərir ki, bu sahədə son illərdə sabit artım tendensiyası müşahidə olunmaqdadır. 2019-cu ildə biznes kreditlərinin həcmi təxminən 9031,6 milyon manat olub. Lakin 2020-ci ildə bu göstəricidə azalma baş verib və kredit həcmi 8478,3 milyon manata enib. Bu geriləmə dünya miqyasında baş verən COVID-19 pandemiyasının ölkə iqtisadiyyatına mənfi təsiri ilə izah oluna

bilər. 2021-ci ildən etibarən isə kreditləşmədə sabit artım qeydə alınır. 2021-ci ildə göstərici bir qədər yüksələrək 9740 milyon manata yaxınlaşıb. 2022-ci ildə artım daha da sürətlənərək kreditlərin həcmi təxminən 10855,1 milyon manata çatıb. Növbəti illərdə isə bu tendensiya daha da güclənmişdir. 2023-cü ildə 12616,8 milyon manata yaxınlaşan kredit həcmi, 2024-cü ildə 14787,2 milyon manatı keçərək maksimum səviyyəyə çatıb [12].

Bu dinamika göstərir ki, ölkədə sahibkarlığın inkişafı istiqamətində müsbət mühit formalaşıb. Maliyyə institutlarının biznes subyektlərinə olan etimadı artmış, həmçinin iqtisadi fəallığın yüksəlməsi nəticəsində bizneslər kredit resurslarından daha geniş şəkildə faydalanmağa başlamışdır. Bu tendensiya gələcəkdə də davam edərsə, ölkədə iqtisadi dayanıqlığın və biznes mühitinin güclənməsinə əhəmiyyətli töhfə verə bilər.

Müasir dövrümüzdə, biznesin bank kreditləşməsi prosesi mürəkkəb məsələdir və həmin problemin həlli bir sıra istiqamətin birləşdiyi hissədədir. Hal-hazırki şəraitdə biznesin kreditləşməsinin mürəkkəb tərəflərinə biznesin şəffaf olmaması, etibarlı zaminlərin və banklar arasında hərtərəfli anlaşmanın olmaması daxil olunur. Biznes prosesinin kreditləşdirilməsində daha bir əhəmiyyət daşıyan problem onunla əlaqəlidir ki, orta hesabla bank təşkilatlarında kredit ərizəsinin araşdırılması ən azı 23 həftə zaman aparır və biznes sahibindən çoxlu sayda arayış və digər informasiyalar tələb edilir. Biznes prosesinin kreditləşdirilməsinin yaxşı tərəflərini də qeyd etmək mümkündür. Əsasən də, iri banklar daimi formada müştəriləri həvəsə gətirir. Həyata keçirilən bu mexanizm kreditin əldə olunması prosedurasının sadə formaya gətirilməsində, həmçinin faiz dərəcəsinin aşağı düşməsində ifadə edilə bilər. Ölkədə kiçik və orta sahibkarlığın inkişafı istiqamətindəki son islahatlar milli iqtisadiyyatın tərəqqisinə birbaşa və dolayı təsir etmişdir. Bununla da kiçik və orta sahibkarlığın inkişafı ölkə iqtisadiyyatında yeniliyin sürətləndirilməsinə, yeni metod və texnologiyaların, ixtiraların, startap layihələrinin, hazırki istehsal metodlarının cəlb olunmasına və tətbiq edilməsinə zəmin yaratmışdır. Belə olduqda, kiçik və orta sahibkarlar intensiv olaraq dəyişən bazar ehtiyaclarına sürətli cavab verə bildilər [3].

| **Dinamika və təhlil** | **2021-cü il** | **2022-cü il** | **2023-ci il** | **2024-ci il** |
|---|---|---|---|---|
| **Maliyyələşdirilmiş layihələr** | | | | |
| Layihələrin ümumi sayı | 1 902 | 2 726 | 3276 | 5722 |
| Ümumi dəyəri (*mln. manatla)* | 287,7 | 399,4 | 459,9 | 481,6 |
| Kredit məbləği (*mln. manatla)* | 130,6 | 145,9 | 193,8 | 248,1 |
| *o cümlədən mikro, kiçik və orta sahibkarlara* (*mln. manat / xüsusi çəki)* | *115 (88,1%)* | *143,4 (98,3%)* | *176,6 (91,1%)* | *231,8 (93,4%)* |
| Kreditlərin layihələrin ümumi dəyərinə nisbəti *(%)* | 45,4 | 36,5 | 42,1 | 51,5 |
| **Daxil olmuş müraciətlər** | | | | |
| Orta icra müddəti *(gün)* | 9 | 8 | 6 | 5 |
| İmtina faizi *(%)* | 14,8% | 9,8% | 2,8% | 2,0% |

***Cədvəl 1. Kiçik və orta sahibkarlıq subyektlərinə yönəlmiş maliyyələşdirmə dinamikası [11]***

Cədvəl 1-də 2021–2024-cü illəri əhatə edən statistik göstəricilər əsasında aparılan təhlil göstərir ki, kiçik və orta sahibkarlıq (KOS) subyektlərinin maliyyələşdirilməsi istiqamətində ölkədə davamlı və məqsədyönlü inkişaf meyilləri müşahidə olunur. Bu dövr ərzində

maliyyələşdirilmiş layihələrin sayında və ayrılan kredit məbləğlərində mühüm artım qeydə alınmışdır [11].

2021-ci ildə 1902 layihə maliyyələşdirildiyi halda, bu rəqəm 2024-cü ildə artıq 5722-yə çatmışdır. Bu, dörd il ərzində layihə sayında 3 dəfəyə yaxın artım olduğunu göstərir ki, bu da dövlətin və maliyyə institutlarının kiçik və orta sahibkarlığın dəstəklənməsinə verdiyi əhəmiyyətin artdığını nümayiş etdirir. Layihələrin ümumi dəyəri baxımından da əhəmiyyətli artım mövcuddur: 2021-ci ildə 287,7 milyon manat olan ümumi dəyər, 2024-cü ildə 481,6 milyon manata yüksəlmişdir. Bu artım, iqtisadiyyatın şaxələndirilməsi və biznes mühitinin stimullaşdırılması istiqamətində aparılan siyasətin nəticəsi olaraq qiymətləndirilə bilər. Kreditləşmə göstəricilərinə nəzər saldıqda da bu meyillə üst-üstə düşən artım müşahidə olunur: kredit məbləği 2021-ci ildə 130,6 milyon manat olduğu halda, 2024-cü ildə 248,1 milyon manata çatmışdır. Xüsusilə diqqətəlayiq məqam, kreditlərin böyük hissəsinin məhz mikro, kiçik və orta sahibkarlıq subyektlərinə yönəldilməsidir. 2024-cü ildə verilən kreditlərin 93,4%-i bu kateqoriyaya aid olan subyektlərə ayrılmışdır. Bu göstərici 2021-ci ildə 88,1% olduğu halda, 2022-ci ildə 98,3%-ə qədər yüksəlmiş və sonrakı illərdə nisbətən azalsa da, 90%-dən yuxarı səviyyəsini qoruyub saxlamışdır. Bu vəziyyət, dövlət siyasətində KOS-un prioritet sektor kimi qəbul edilməsinin nəticəsidir və maliyyə resurslarının daha kiçik strukturlara istiqamətləndirildiyini təsdiqləyir [11].

Kreditlərin layihələrin ümumi dəyərinə nisbətinin dəyişməsi də maliyyələşdirmə siyasətində mühüm meylləri ortaya qoyur. 2021-ci ildə bu nisbət 45,4% olduğu halda, 2022 və 2023-cü illərdə bu göstərici müvafiq olaraq 36,5% və 42,1% olmuş, 2024-cü ildə isə 51,5%-ə çatmışdır. Bu, həm də kreditlərin layihələrin maliyyələşməsindəki rolunun gücləndiyini və özəl sektorun daha çox maliyyə dəstəyi ilə təmin edildiyini göstərir. Orta icra müddətinə dair statistikalar da diqqətəlayiqdir. Əgər 2021-ci ildə kredit müraciətlərinin icra müddəti orta hesabla 9 gün idisə, 2024-cü ildə bu müddət 5 günə qədər azalmışdır. Bu göstərici, xidmətlərin sadələşdirilməsi və elektron müraciət sistemlərinin tətbiqi nəticəsində administrativ proseslərin daha operativ həyata keçirildiyini göstərir.

Eyni zamanda, imtina faizində də ciddi enmə müşahidə olunur. 2021-ci ildə imtina faizi 14,8% olduğu halda, bu göstərici 2024-cü ildə cəmi 2%-ə düşmüşdür. Bu azalma kredit əldə etmək imkanlarının genişləndiyini, bank-müştəri münasibətlərində risk qiymətləndirmə mexanizmlərinin daha effektiv işlədiyini və sahibkarların müraciət keyfiyyətlərinin yüksəldiyini göstərir.

Kiçik və orta sahibkarların maliyyə imkanları, maliyyələşmə mənbələrinin strukturu onların iqtisadi və investisiya fəaliyyətinə mühüm təsir göstərir. Hal-hazırda Azərbaycanda kiçik və orta sahibkarlara dövlət və özəl beynəlxalq maliyyə yardımı sistemi fəaliyyət göstərir. Müstəqillik illərində kiçik və orta sahibkarlara maliyyə yardımı sahəsində müəyyən müsbət təcrübə toplanmışdır. Ancaq bu təcrübələrə baxmayaraq, potensialına görə ölkə iqtisadiyyatında mühüm rol oynayan kiçik və orta sahibkarlar maliyyə resurslarından məhdud istifadə edir. Maliyyə resurslarına olan məhdudiyyət həm uzunmüddətli, həm də qısamüddətli kreditlərin alınmasında da özünü göstərir. Azərbaycanda problemə çevrilən vacib məsələlərdən biri kiçik və orta sahibkarların investisiya fəaliyyətinin aktivləşdirilməsi və bu sahəyə maliyyə resurslarının cəlb olunması imkanlarının genişləndirilməsidir. Ölkəmizdə kiçik və orta sahibkarlara dövlət maliyyə yardımı üzrə iki mexanizm yaradılıb [5].

Birinci mexanizm subsidiyalar şəklində fermerlərə kredit güzəştlərinin verilməsidir. Hazırlanıb ərsəyə gətirilən bu mexanizm vasitəsilə fermerlərin kommersiya banklarından aldıqları kreditlərin faizləri fermerlər əvəzinə dövlət büdcəsi vəsaiti hesabına ödənilmişdir.

İkinci mexanizm isə kiçik bizneslərə investisiya yardımlarının həyata keçirilməsidir. Bu məqsədlə dövlət büdcəsindən vəsaitlərin ayrılması planlaşdırılır. Bu vəsaitlər sahibkarlığın prioritet istiqamətlərində investisiya layihələrinə müsabiqə əsasında güzəştli uzunmüddətli kreditlər şəklində yönəldilir.

**Nəticə**

Kiçik biznesin iqtisadi inkişafda rolu danılmazdır. Onun çevikliyi, məşğulluğa verdiyi töhfə və regionlarda iqtisadi canlanmanı təmin etmək qabiliyyəti bu sektoru dövlət siyasətində

prioritet sahəyə çevirir. Azərbaycanda bu sahənin inkişafına dövlət dəstəyi artmaqdadır, lakin maliyyə resurslarına, xüsusilə bank kreditlərinə çıxış hələ də əsas maneələrdən biri olaraq qalır.

Məqalədə təqdim olunan statistik təhlillər göstərir ki, 2019-2023-cü illər ərzində kiçik biznesə ayrılan kreditlərin həcmi artsa da, onların ümumi kredit portfelindəki payı dəyişkən və nisbətən aşağı səviyyədədir. Bank sektorunun kredit risklərinə qarşı ehtiyatlı yanaşması, yüksək faiz dərəcələri, zəif maliyyə hesabatlılığı və alternativ maliyyələşmə alətlərinin inkişaf etməməsi bu sahədə əsas problemlərdəndir.

Məqalədə təklif olunan tövsiyələr - dövlət zəmanətləri, faiz subsidiyaları, kredit reytinq sistemlərinin yaradılması və maliyyə savadlılığının artırılması - kiçik biznesin kreditləşmə imkanlarını genişləndirə və onların iqtisadiyyata töhfəsini artırmağa xidmət edə bilər. Əlavə olaraq, alternativ maliyyələşmə bazarının inkişaf etdirilməsi bu sahəyə yeni nəfəs gətirə bilər.Bu istiqamətdə davamlı dövlət dəstəyi və institusional islahatlar kiçik biznesin maliyyə dayanıqlığını gücləndirəcək və ümumi iqtisadi inkişafı daha da sürətləndirəcəkdir

## Ədəbiyyat


1. Abdullayev Ş.Ə., Əsgərova R.V. Bank işi. – Bakı, 2009. – 465 s.
2. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. – AR Prezidentinin Fərmanı, 6 dekabr 2016-cı il, № 1138.
3. Əliyev V. Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı problemləri. – Bakı: Elm və Təhsil, 2020. – 219 s.
4. Əlizadə A. Kiçik sahibkarlığın maliyyə mənbələri və kreditləşmə imkanları. – Bakı: Qanun, 2021. – 175 s.
5. Nuriyev R. Kiçik və orta biznesin iqtisadi mexanizmləri. – Bakı: Qanun, 2020. – 190 s.
6. Ayyagari, M., Beck, T., & Demirgüç-Kunt, A. (2007). Small and Medium Enterprises Across the Globe. Small Business Economics, 29(4), 415–434.
**7.** Berisha, G., & Pula, J. S. (2015). Defining Small and Medium Enterprises: A Critical Review. Academic Journal of Business, Administration, Law and Social Sciences, 1(1), 17–28.
8. Brigham, E. F., & Ehrhardt, M. C. (2016). Financial Management: Theory & Practice (15th ed.). Boston: Cengage Learning.
9. Wang, Y. (2016). What Are the Biggest Obstacles to Growth of SMEs in Developing Countries? – An Empirical Evidence from an Enterprise Survey. Borsa Istanbul Review, 16(3), 167–176.
10. https://www.stat.gov.az
11. https://edf.gov.az/
12. https://www.cbar.az
13. https://www.unido.org
14. https://epomen.ru/issues/2020/48/02.pdf
15. https://ecsn.ru/wp-content/uploads/201804_63.pdf



**Məqalənin redaksiyaya daxilolma tarixi: 22.06.2025**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 28.06.2025**
**Məqalənin çapa qəbul olunma tarixi: 05.07.2025**